# ÜSTÜN OLAN İNSANLIQ

## *Məlahət Soltanqızının "Xəyanətin bədəli" poeması haqqında*

Məlahət Soltanqızının bütün poemalarında insan, onun taleyi əsas götürülür. Həyatın təzadları arasından mübarizələri ilə keçə bilən insan taleyi haqqında nikbin fikirlər demək elə də çətin deyil. Ancaq həyat bəzən o qədər ziddiyyətli hadisələrlə müşayiət olunur ki, bundan baş çıxarmaq hər kəs üçün asan olmur. Xüsusilə təcrübəsiz, həyatla mübarizədə kifayət qədər hazırlıqsız olan hər kəs ağır mənəvi, psixoloji zərbələr qarşısında sarsılır. Nəinki özünün mənəvi mühitini qoruyur, hətta psixoloji cəhətdən mənəvi travmalar alır. Və bu zədələr onun fiziki sağlamlığını da məhv edir. Hər bir müəllif hər hansı bir mövzunu işləyərkən özünün fikir və düşüncələrini ədəbi qəhrəmanının taleyi ilə uyğunlaşdırmağa çalışır. İstəyir ki, cəmiyyətə çatdırmaq istədiyi məlumatlar yaratdığı obrazın üzərində cəmləşsin. Əgər əsərin qəhrəmanı ağır duruma düşübsə, cəmiyyətdən gələn mənfi meyillərin qarşısında tab gətirməyərək məhv olubsa, demək, bu, müəyyən səhvlərin nəticəsidir. Onun qəhrəmanları bir növ həyatın görünən və görünməyən tərəfləri üçün güzgüyə çevrilir.

Müəllif yaradıcılığında insanı tərənnüm edir. Onun ucalmaq, cəmiyyətdə seçilmək haqqını müdafiə edir. Bunun üçün ən düzgün mübarizə üsulunu da göstərməyə çalışır. Birinci növbədə, Məlahət Soltanqızının ədəbi qəhrəmanları özlərinə güvənclidirlər. Onlar cəmiyyətə qarşı münasibətdə sağlam və qərəzsiz mövqedədirlər. Öz zəhmətləri ilə yaşamağa üstünlük verirlər. Şübhəsiz, bu məsələ hər bir insanın taleyi üçün əsas şərtdir. Sözün həqiqi mənasında hər bir insan gərək öz zəhməti ilə ucalmağa çalışsın. Həyat uğrunda mübarizədə, sözün həqiqi mənasında, mətinlik, iradə göstərən, ağır mənəvi zərbələrdən sarsılmayan və yaxud sarsılıb təzədən özünə gələn, dirçələn qəhrəmanları - sözün həqiqi mənasında həyatdan gələn insanları biz Məlahət Soltanqızının poemalarında görür və bir çox hallarda sanki onları yaxından tanıdığımızı da təsdiq edirik. Çünki bədii əsərin qəhrəmanı, müəllifin təqdir etdiyi, cəmiyyətə tanıtmaq istədiyi insan həyatdan gəlirsə, demək, bizə kifayət qədər tanışdır. Hətta bəlkə doğmadır. Belə qəhrəmanları biz Məlahətin digər poemalarında da - "Könül yarası", "Qadın", "Dünya", "Həyat, insan, zaman", "Yoxsulluq" kimi əsərlərində də görürük. Məlahətin araşdırmaq istədiyimiz, oxuculara mahiyyətini yaxından çatdırmağa çalışdığımız əsərlərindən biri də "Xəyanətin bədəli"dir.

Bu əsərin adı iki sözün birliyindən yaradılıb; "Xəyanətin bədəli". Məlumdur ki, xəyanət anti insani keyfiyyətdir. İnsanlar mənəvi ölçüləri itirəndə xəyanət ayaq açır.Bu keyfiyyət insanlara qarşı qeyri insani mövqedən yanaşan adamların keyfiyyətidir. Başqa sözlə, sədaqətin əksidir, antonimidir. Mənəvi hazırlığı yüksək olan hər hansı bir şəxs dəyərlərə tapınır. Xüsusilə insani dəyərlərin nə demək olduğunu yaxşı başa düşür. Və bu dəyərləri qorumağa çalışır. Hətta bu yolda təhdidlərə, çətinliklərə, ən ağır halda təcavüzlərə məruz qalsa belə, mənəvi tarazlığı bütöv olan insan xəyanətə yol vermir. Demək, onun təbiətində sədaqət hakim düşüncənin ifadəsi kimi görünür. Amma, əlbəttə, sədaqəti qədərincə dəyərləndirə bilməyən adamlar bütün hallarda hər şeyi, bütün dəyərləri, hətta sədaqət hissini də öz mənafeyinə qurban verir.

Müəllif xəyanətin cavabsız qalmayacağını da diqqətə çəkmək üçün "bədəl" sözünü də işlədir. Mahiyyətcə, belə başa düşülür ki, cəmiyyət, həyat xəyanəti cavabsız qoymur. Onun bədəlini, yəni əvəzini ən pis şəkildə xəyanətkarın özünə qaytarır.

Poemanın əzəlindən adı çəkilən Şahnabat adlı obrazı müəllifin düşüncələrini ifadə etmək üçün seçilib.

Şahnabat kimdir? O, çox yoxsul bir ailənin övladıdır, gənc qızdır.

Ümumiyyətlə, burada bir məsələni də qeyd etmək yerinə düşər. Məlahət Soltanqızı bir çox hallarda insanları fəlakətə düçar edən səbəbləri də araşdırmağa çalışır. Başqa sözlə, bədii tədqiqata cəlb edir. Bu da insanların



maddi cəhətdən təmin olunmamasıdır. Məlahəti çox düşündürür. Əgər bir insan əziyyət çəkirsə, bütün varlığı ilə özünü yaşatmaq, cəmiyyətə xeyir vermək istəyi ilə mübarizə aparırsa, gərək onun maddi durumu daha yaxşı olsun.

Zənnimizcə, insanların maddi cəhətdən təmin olunmamasının səbəbləri tarixən filosofları da düşündürüb. Görkəmli ictimai xadimlər, siyasətçilər insanları maddi cəhətdən təmin edəcək bir cəmiyyət formalaşdırmağa çalışıblar. Hətta Nizaminin "İsgəndərnamə" poemasında "Xoşbəxtlər ölkəsi" adlanan bir cəmiyyətdən söhbət gedir. Burada varlı və yoxsul yoxdur. Hər kəs asanlıqla yaşamaq üçün özünə nə lazımdırsa, təmin edə bilir. Onu da qeyd edək ki, cəmiyyətdə bərabər həyat, maddi təminat mühiti yaratmaq istəyən qərb utopistlərindən elmi düşüncə materiallarında çox söhbət gedir. Ancaq Nizami qərb utopistlərini demək olar ki, 700 il əvvəl qabaqlamışdı. Buradaca onu da qeyd etmək lazımdır ki, sosialist inqilabının nəzəri, mənəvi əsaslarını hazırlayan klassiklər cəmiyyətdə mənim, sənin bölgüsünün yaratdığı fəsadları aradan qaldıracaq cəmiyyəti kommunizm kimi təsəvvür edirdilər. Bəlkə də bəşər nəslinin inkişafının hansısa mərhələsində bu ideyanın yaşarı ola biləcək şəraiti də yarana bilər. Ancaq faktiki olaraq süni şəkildə tezləşdirilən, inqilab yolu ilə gerçəkləşən sosializm dünyanın bəşər nəslinə sonsuz bəlalar gətirdi, milyonlarla insanın taleyi məhv edildi. Nəhayətdə isə, iflasa uğradı.

Bir sözlə, cəmiyyətin maddi təminatının yaratdığı fəsadlar yazıçılar üçün də tədqiqat obyektidir. Yazıçılar insanların taleyində ağrıya səbəb olan maddiyyat məsələsinin fəsadlarını aradan qaldırmaq üçün bədii tədqiqatlarla insanları düzgün yola yönəltməyə çalışırlar. M.Soltanqızının ədəbi qəhrəmanı Şahnabat da belə acı taleyin qurbanı olanlardandır.

Müəllif əsərinə Şahnabatın həyatı haqqında təsəvvür yarada biləcək düşüncələrlə başlayır:

Bir qadın vardı...
Adı Şahnabat
Zaman-zaman ətrafı
Yerli, yersiz ona böhtan atardı.
Ömrün gözəl çağında
Bəxti qara gətirmiş
Bir şərəfsiz, biqeyrət
Namusunu kirlətmiş.
O qadın oxşamırdı
Pis yolun yolçusuna
Fəqət ətrafdakılar
Onun cavan yaşından
Adın pisə yozdular
Ağızdan-ağıza dolaşdı adı
Ona düşmən kəsildi
Həm doğması, həm yadı.
Bircə soran olmadı
Başına gələnləri
O da susdu lal kimi
Dərdini danışmadı.
İçin-için əridi
Kimsədən kömək umub,
Kimsəyə qarışmadı.

Hiss olunur ki, Şahnabat həyatın ağrı-acılarını görüb. Yoxsulluğun gətirdiyi acılıqlarla ilk gəncliyindən qarşılaşıb. Ona görə də insanlara yovuşa bilmir. Hansısa bir cəhətdən xüsusi bir nigaranlıq çəkdiyi üçün heç kimə yovuşmur. Bu, adi insan hissləridir. Hər hansı bir şəxs başa düşəndə ki, ətraf mühit onu qədərincə qiymətləndirmir. Onda yeganə yol özünə qapılmadır, özünü insanlardan təcridetmədir.

Şahnabat kifayət qədər ədəb, mərifət sahibi olsa da, özünə uyğun mühiti tapa bilmir. Əlbəttə, hər bir insanın səhvi ola bilər. Şahnabatın özünün də hansısa bir səhvi onun cəmiyyət tərəfindən çıxdaş olunmasına əsas deyil. Ancaq cəmiyyət onun haqqında dedi-qodulardan çəkinmir. Şahnabatı ruhən əzən, onu mənəvi cəhətdən sarsıdan bu dedi-qodular qarşısında təkdir, tənhadır.

Hər bir insan çətinliyə düşəndə istinad yeri kimi özünün doğmalarını görür. Xüsusilə atasını və anasını. Amma iş burasındadır ki, Şahnabat atasını, anasını da çox erkən itirib. Demək olar ki, həyatla mübarizədə o təkdir, köməksizdir. Amma buna baxmayaraq, yenə də özünə sığınır, kimsədən kömək istəmir:

Çox məsum görünürdü
Danışılan dedi-qodu
Heç ona yaraşmırdı
O da bir qəlb sahibi
İçində nə tufanlar,
Nə fırtına oyanmış
Gözəlliyi, gəncliyi
Bir namərdin əliylə
Zülmət kimi qaralmış
Səssizdi gecə kimi
Dindirməsən danışmaz
Gözlərini qaldırıb
Heç bir gözə tuş olmaz.
Beləcə səssiz-səssiz
Ömrü axıb gedirdi.

Əlbəttə, hər bir insanın həyatı elə həyat uğrunda mübarizələrdə keçir. Hər kəs öz haqqı uğrunda enerjisini sərf edir, gücünə güvənir. Bundan sonra Şahnabatın tale yolu haqqında müəllif daha ətraflı söhbət açır. Biz Şahnabatı yaxından tanıya bilirik.

İş burasındadır ki, onun mənsub olduğu ailə halallıqla dolanıb, halallıqla yaşasa da, yoxsulluqdan çıxa bilməyiblər. Ancaq ailənin mənəvi sağlamlığı Şahnabatın daxili dünyası üçün əsas dəyər olub. Atasının erkən xəstəlik yatağına düşməsi onu məcbur edir ki, dolanışıq üçün çıxış yolu axtarsın. O, belə bir çıxış yolunu şəhərə üz tutmaqda görür.

Şəhər isə insanları həmişə gülərüzlə qarşılamır. Çox vaxt şəhərin bəzəkli reklamları, hay-küylü mühiti arxasında insanların faciəli taleləri yaşanır. Və məhz belə bir mühitlə Şahnabatla qarşılaşır:

İllər öncə bir hadisə yaşandı...
Kənddə böyüyən bu qız
Şəhərdə məskunlaşdı.
Ailəsi yoxsul idi, elə dədə-babadan
Halallıqla dolanıb halallıqla yaşamış
Ömrün orta yaşında ata düşmüş yatağa,
Çarəsiz dərdləriylə tanrı çəkmiş sınağa.
Dava-dərman almağa
Yetişmədi pul-para
Ana çarəsiz idi.
Atanın xətri üçün
Evdə nə var satdılar...
Evə qazanc gətirən xəstə yatır yataqda
Evin təkcə övladı buna dözmədi daha.
Başqa çarə yox idi
Şəhərə üz tutmalı -
Gücü çatan bir işin
Qanadından tutmalı.
Açılar-açılmaz səhərin gözü
Anasıyla vidalaşıb tərk etdi evi.
Şəhərin səs-küyü onu aldı ağzına
Neçə xəyal qurmuşdu o bu gənclik yaşında.
Nədən ona dar gəldi
Ucsuz-bucaqsız şəhər?

Beləliklə, Şahnabat ağzını əjdaha kimi açmış olan bir mühitə düşür. Hər kəs yaddır. Bir doğma olan, simsar olan yoxdur ki, Şahnabat ona yaxınlaşsın. Ancaq Şahnabat qətiyyətlidir. O iş tapmalıdır. Üz tutub gəldiyi bu şəhərdə elə bir işdə çalışmalıdır ki, həm özünü saxlaya bilsin, həm də ailəyə maddi dayaq olsun.

Əgər belə demək mümkünsə, Şahnabat şəhərdə təkcə dolanışıq axtarmır, qazanc güdmür. O, dolanışıqdan əvvəl, qazancdan əvvəl insan axtarır. Elə bir insan ki, onun simasında təhlükəsizlik görsün, ona arxayın ola bilsin, ona güvənci olsun. Belə bir insanı tapa biləcəkmi, bilməyəcəkmi - hələ ki, bunu demək çətindir.

Şübhəsiz, şəhərin hay-küylü mühiti anası ilə vidalaşıb xəstə yatan atasını yataqda qoyub gələn Şahnabatı sanki qaranlıq bir mühitə salır. Amma çaşmır, özünü itirmir. Söz yox, onun kövrəldiyini, kimsəsizlik əzabı çəkdiyini də hiss edirik. Müəllif bu məqamları çox həssaslıqla qələmə alır. Biz sanki Şahnabatın özü ilə birgə onun yaşadığı hisslərin axarına düşürük. Az qala, onu gözlərimizlə axtarır, onun qolundan yapışır, ona kömək etmək istədiyimizi bildirməyə çalışırıq. Əlbəttə, fikrən, xəyalən. Bu da əsərin real həyat səhnələri ilə səsləşməsindən irəli gələn hissdir.

*(Davamı var)*